BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2011*

**UOT 81**
**UOT 81’367**
**46 21 45**

# MÜASİR AZƏRBAYCAN DİLİNDƏ BƏZİ LEKSİK VƏ QRAMMATİK ŞƏKİLÇİLƏRDƏ QOVUŞMA

**S.X.VƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***s.x.valiyeva@gmail.com***

*Məqalədə təsviri üsula əsaslanaraq müasir Azərbaycan dilində leksik və bəzi qrammatik şəkilçilərdə mövcud olan qovuşuq və ya mürəkkəb şəkilçilərin tədqiqinə yer verilmişdir. Burada leksik şəkilçilərdən zərflərin morfoloji xüsusiyyətləri araşdırılmaqla yanaşı, mənsubiyyət şəkilçilərində də qovuşma faktı izlənilmişdir.*

**Açar sözlər:** söz yaradıcılığı, dil vahidləri, mürəkkəb struktur, şəkilçi birikməsi, qovuşma, zərf düzəldən və mənsubiyyət şəkilçiləri, semantik-morfoloji xüsusiyyətlər

Zərflərin özünəməxsus, onları digər nitq hissələrindən quruluş baxımından fərqləndirən xüsusi sözdüzəldici şəkilçiləri var. Zərf yaranış etibarilə digər nitq hissələrindən çox-çox sonralar meydana çıxmış və müasir dilimizin leksik sistemində mühüm yer tutur. Zaman-zaman başqa nitq hissələrinin zəminində formalaşan zərflər bu gün bəzi nitq hissələri ilə qarışıq Salınır. Bunun əsas səbəbi türk dillərində zərfin sintaktik baxımdan, sintaktik zəmində müəyyənləşdirmə tendensiyasıdır. Belə ki, zərflər, bir qayda olaraq, sözün cümlə daxilində daşıdığı sintaktik vəzifəsinə, semantikasına və ya semantik-morfoloji xüsusiyyətlərinə görə müəyyənləşir. Bu xüsusiyyətlərin hər biri zərfin başqa nitq hissələri ilə müqayisə olunması üçün əsas yaradır. Sintaktik cəhətə fikir versək, əlamət və keyfiyyətlilik həm ismə, həm də felə aid olur ki, eyni sözü çox vaxt isimdən də, feldən də əvvəl işlətmək olur və bu zaman həmin sözün hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirmək çətinlik yaradır. Morfoloji cəhətə gəldikdə isə hətta xalis sifət düzəldən şəkilçi ilə formalaşmış sifət özü də fellə əlaqəyə girə bilir. Bütün bunlar onu göstərir ki, zərfin müəyyənləşdirilməsi olduqca çətindir. Lakin buna baxmayaraq, zərf yaradan müxtəlif üsullar zərfi nitq hissələri içərisində yerini dəqiqləşdirilməsinə kömək

edir. Bu gün zərflər müxtəlif üsullarla tərkibini zənginləşdirir. Belə ki, zərflər leksik, morfoloji və sintaktik üsullarla yaradılır. Bu yolların içərisində morfoloji yolla zərf yaradıcılığı zənginliyi və rəngarəngliyinə görə səciyyələnir. "Morfoloji söz yaradıcılığı prosesində iştirak edən şəkilçilərin ümumi cəhətləri onların leksik-qrammatik əlamətləri, məhsuldarlığı, törəmə yolları, məna yaradıcılığı; xüsusi cəhətləri isə ayrı-ayrı nitq kateqoriyalarına münasibəti ilə müəyyənləşə bilir" (3,6).

Dil strukturunun inkişafı yeni dil vahidlərinin yaranması və yaxud mövcud vahidlərin zənginləşməsi ilə sıx bağlıdır. Dil quruluşundan asılı olaraq dil vahidlərinin yaranmasının müxtəlif yolları var. Azərbaycan dilində iltisaqiliyin əsas əlamətlərindən biri olaraq, şəkilçilərin sözə qoşulması müəyyən ardıcıllığa malikdir. Belə ki, söz köklərinə, ilk növbədə, leksik şəkilçilər, daha sonra isə qrammatik şəkilçilər artırılır. Lakin bununla yanaşı, bəzi istisnalar da olur. Yaratdıqları çalarlara görə bir–birindən fərqlənən şəkilçilər öz quruluşuna görə də müxtəlif strukturludur.

Ümumiyyətlə, dildə daim bir-birinə tərs mütənasib olan proseslər gedir. Bəzi vahidlərdə çoxhecalılıqdan təkhecalılığa transformasiya, həmçinin mürəkkəb və düzəltmə söz köklərində sadələşmə prosesi baş verdiyi halda, dildə bunun əksinə olan bir proses də gedir ki, bu da müstəqil şəkilçilərin birikərək və yaxud qovuşaraq mürəkkəb şəkilçilərə çevrilməsi prosesidir. Bunu da şərti olaraq mürəkkəbləşmə adlandırmaq olar.

Müasir Azərbaycan dilində zərf düzəldən şəkilçilərin müxtəlif növlərinə rast gəlinir ki, bunlardan biri qovuşuq şəkilçilərdir. Dilimizdə qovuşuq halda işlənən zərf şəkilçiləri bunlardır:

**1. -casına/-cəsinə; 2. -cadan/-cədən; 3. -ına /-inə; 4. -arı /-əri; 5. -akı /-əki.**

Ümumiyyətlə, tərkib baxımından müxtəlif xüsusiyyətlərə malik olan zərflərin mənşəyində müxtəlif nitq hissələri dayanır. Hər nitq hissəsindən bir əlaməti özündə cəmləşdirən zərflər Azərbaycan dilində artıq müstəqil bir nitq hissəsidir. Məhz bu cəhətdən də, dilimizdəki qovuşuq zərf şəkilçilərinin əsasında bu və ya digər nitq hissəsinə məxsus olan şəkilçilərin durması təbiidir.

**1. –casına /–cəsinə.** Quruluş etibarilə mürəkkəb olan bu şəkilçi, müasir Azərbaycan dilində üç müstəqil şəkilçinin birikməsindən formlaşmışdır. Məhsuldar şəkilçi adlandırıla bilən –casına[2] modallıq və intensivlik mənası yaradan –ca /–cə, üçüncü şəxs mənsubiyyət–sı /–si və yönlük hal şəkilçilərinin şəkil əlamətinin –(n)a / –(n)ə birləşməsindən yaranmışdır.

**Quruluşu : -ca+(s)ı+(n)a / -cə+(s)i+(n)ə.**

Bu şəkilçi dilimizdə əsasən, isim və sifət köklərinə artırılaraq, hərəkətin tərzini bildirir. Məsələn: dostcasına; qardaşcasına; insancasına; alçaqcasına; asancasına; qorxaqcasına və s.

**2. –cadan /–cədən**. Göründüyü kimi, bu şəkilçidə qovuşuq şəkildədir. –ca /–cə ilə ismin çıxışlıq hal –dan /–dən şəkilçilərinin vəhdətindən ibarətdir. Və şəkilçi artırıldığı sözdə hərəkətin icrasının əvvəlcədən çıxış nöqtəsinin zaman əlamətini ifadə edir. Məs.: qabaqcadan; gizlincədən; əvvəlcədən və s.

**3. –(s)ına /–(s)inə** qovuşuq şəkilçisi. Məhsuldar şəkilçilərdəndir. III şəxs mənsubiyyət (–ı[4] və ya –sı[4]) və (n)–a /–ə yönlük hal şəkilçisinin birləşməsidir. Bu şəkilçi iş və hərəkətin tərzini bildirərək tərz bildirən zərflər əmələ gətirir: başına; tərsinə; düzünə; əyrisinə; çəpinə; boşuna və s. Bu sözlərdə –ı(sı) və –(n)a şəkilçisinin mövcudluğu açıq şəkildə özünü göstərir, lakin, təbii ki, bunları ayrı-ayrı təqdim etmək olmaz, ən azı ona görə ki, -ına[2], artıq qrammatik şəkilçi deyil, vahid leksik şəkilçi kimi formalaşmışdır.

**4. –arı /–əri.** Zərf əmələ gətirən şəkilçilərin formalaşmasında ismin hal şəkilçilərinin xüsusi rolu var. Bu da ilk növbədə hal şəkilçiləri olan sözlərin adverballaşması ilə əlaqədardır. Bu prosesi keçən zərflərin tərkibindəki hal şəkilçilərinin bir qismi (–da; –dan) leksik funksiya daşıdığı halda, digər isə (–qarı<arı) arxaikləşib asemantik morfemə çevrilmişdir. Məs.: dilimizdəki ayda, ildə, gündə, yaxında; bərkdən, pəsdən, tezdən və s. bu kimi zərflərin çoxunda yerlik və çıxışlıq hal şəkilçiləri artıq ilkin qrammatik semantikasını itirərək, zərfin morfoloji göstəricisinə, daha doğrusu, zərfdüzəldici şəkilçiyə çevrilmişdir.

–arı /–əri şəkilçisini izah edən S.Cəfərov yazır ki, «Bu şəkilçi yönlük hal şəkilçisi ilə bir zaman, məkan bildirmək üçün işlədilən və sonra –ra /–rə kimi formaya düşmüş qoşmanın birləşməsi nəticəsində törəmişdir. Vaxtilə məkan qoşması olmuş və indi şəkilçiləşmiş olan –ra /–rə ünsürünü bura, ora, üzrə, içrə sözlərində görə bilirik. Görünür ki, –ra/–rə yönlük hal şəkilçili sözlərlə işləndikdə –rı /–rı şəklində düşərək –arı /–əri zərf şəkilçisini əmələ gətirmişdir.

Müasir dilimizdə bu şəkilçi iç sözündə (içəri) öz varlığını saxlamışsa da, yuxarı, geri, ayrı, bəri kimi bir sıra sözlərdə itirərək söz tərkibinə qarışmış və sadə yer zərfləri əmələ gətirmişdir» (3, 130).

Bu şəkilçidən bəhs edən F.A.Cəlilov göstərir ki, **–arı /–əri** şəkilçisi yönlük hal şəkilçisi olan –qarı /–qaru şəkilçisindəndir. Və inkişaf xəttini bu cür izah edir: –qarı > –arı // –ar dəyişməsi ilə (2, 186).

Bizə görə, bu şəkilçi –qarı/–qaru şəkilçisinin birinci səsininin düşməsi ilə əmələ gəlmişdir. Məs.: yuxarı, irəli, geri, bəri və bu kimi s. sözlər müasir dildə sadələşir. Qədim yönlük hal şəkilçisi olan –qaru//-gerü – [q][g] – səsinin düşməsi ilə formalaşmışdır. Bu forma –arı/-əri şəkilçili zərflərin tərkibində aydın seçilir. Məs.: irəli≤iləgərü sözlərində ilkin forma saxlanılmışdır. –qaru morfemi ilgərü, yuxqaru sözlərində rekonstruksiya etmək olursa, oxşar keçid keçirən yerə, ara sözlərində olan –re və –ra şəkilçilərini bura (bu ara), ora (o ara) sözlərində də bərpa etmək olur.

5. Zərf düzəldən qovuşuq şəkilçilərdən sonuncusu **–akı / –əki** şəkilçisidir. Bu şəkilçinin tərkib hissələri müasir dilimizdə geniş işlənmə tezliyinə malikdir: belə ki, –akı / –əki şəkilçi –a / –ə yönlük hal şəkilçisi və –ki /–kı adlardan sifət düzəldən (səhərki, bizimki və s.) şəkilçilərin qovuşmasıdır. Bu şəkilçi ilə düzələn söz köklərinə Azərbaycan dilində çox da rast gəlinmir, yalnız bir–iki sözün tərkibində. Məs.: yanakı, çəpəki və s.

Bura qədər deyilənlərdən aydın olur ki, mürəkkəbləşmə nəticəsində formalaşmış şəkilçinin tərkib hissələri ayrılıqda yeni mənalı söz yaratmaq

funksiyasını itirmiş olur (və ya qrammatik şəkilçi mövqeyində dayanır). Bu şəkilçilər birləşmə daxilində fonetik tamlığını saxlasa belə, bəzi şəkilçi birləşmələrin səs xüsusiyyətlərindən asılı olaraq tamamilə dəyişib, başqa bir şəkilə düşmüşdür.

Tarixən dilimizdə leksik şəkilçilərdə qovuşma ilə yanaşı qrammatik şəkilçilərdə də qovuşma prosesi mövcud olmuşdur. Müasir Azərbaycan dilində qovuşuq qrammatik şəkilçilərə əsasən felin təsriflənməyən formalarında (xüsusilə, feli bağlama və feli sifət şəkilçiləri); felin təsriflənən formalarında (xüsusilə, xəbərlik formasının – qəti gələcək zaman şəkilçisi, felin lazım və vacib formaları) və mənsubiyyət şəkilçisinin I–II şəxsin cəm şəkilçilərində rast gəlinir. Məqalənin həcmi nəzərə alınaraq, burda son şəkilçilərin izahına çalışacağıq.

Müasir dilimizdə qrammatik qovuşuq şəkilçilərdən biri I və II şəxs mənsubiyyət (cəmi) kateqoriyasının şəkil əlamətidir: «-ımız$^4$ ,-ınız$^4$ şəklində işlənən bu şəkilçi əksər türk dillərində mövcuddur (6).

«Mənsubiyyət kateqoriyası diaxroniya baxımından hal, şəxs və kəmiyyət kateqoriyaları ilə sıx əlaqədə olmuşdur ki, bunun da izi həmin kateqoriyaların morfemlərində aydın hiss olunur» (2, 203).

A.N.Kononov mənsubiyyət şəkilçilərindən bəhs edərkən göstərir ki, I şəxsdə təkdə –m, cəmdə –iz, II şəxsdə təkdə –n, cəmdə –iz şəkilçiləri cəm şəklinin arxaik formalarıdır (7, 52).

N.K.Dimitriyev də I və II şəxsin təki və cəmini şəxs əvəzlikləri ilə ifadə olduğunu qeyd edir və tərkib etibarilə I və II şəxsin cəmi mənsubiyyət şəkilçilərini iki morfemə ayırır: –ım+ız; –ın+–ız. Burada –ız kəmiyyət kateqoriyasının arxaik şəkli olduğunu vurğulayır (5, 57).

Bu şəkilçilərin mənşəyi çox aydındır: belə ki, I və II şəxs mənsubiyyət kateqoriyasının formantları –(ı)–m+ız və –(ı)n +ız şəklindən ibarətdir.

–(ı)m, –(ı)n mənsubiyyət şəkilçisi, –ız formantı isə türk dillərində geniş işlənən, lakin Azərbaycan türkcəsində vaxtı ilə qoşalıq, cəmlik anlayışını ifadə edən şəkilçidir. Bu şəkilçilər Azərbaycan dilində keyfiyyət etibarilə güclü qovuşmaya məruz qalaraq, dildə vahid formant kimi çıxış edirlər.

Bütün bu deyilənlərdən aydın olur ki, şəkilçilərin qovuşması böyük bir proses olub, dildə yeni morfoloji, leksik vahidlərin formalaşmasına səbəb olur.

Sonda qovuşma prosesi keçirmiş və keçirməkdə olan şəkilçilərin ümumi xarakteristikasını bu cür vermək və yekunlaşdırmaq olar:

1. Qovuşmuş şəkilçi tarixən ən azı iki şəkilçidən ibarət olmalıdır.
2. Bu tip şəkilçilərin komponentinin biri məhsuldar, digəri qeyri–məhsuldar ola bilər. Məs.: –ıcı$^4$.
3. Vahid struktura malik olurlar.
4. Söz daxilində parçalanmaya məruz qalmırlar.
5. Eyni formant müxtəlif şəkilçilərlə birləşərək başqa kateqoriyanın əlamətinə çevrilə bilər. Məs.: dıq+da; dıq+ım; dıq+ca və s.
6. Qovuşmuş şəkilçilər dildə yeni leksik-qrammatik vahidlərdəndir.
7. Dildə mövcud olan şəkilçilər müxtəlif fonetik hadisələrə məruz qalıb,

ya sadələşə, ya da ki, mürəkkəbləşə bilər. Məs.: la+ar > –lar sadələşir, –an+aq şəkilçisi isə mürəkkəb quruluş yaradır.

8. Dildə iki leksik şəkilçinin qovuşması bu şəkilçinin artırıldığı sözün semantikası ilə çox bağlıdır.

### ƏDƏBİYYAT


1. Cəlilov F.A. Azərbaycan dilinin morfonologiyası. Bakı: Maarif, 1988, 285 s.
2. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı: ADU, 1960, 204 s.
3. Qiyasbəyli M. Azərbaycan dilində morfoloji söz yaradıcılığı. Bakı: Maarif, 1987, 180 s.
4. Джафаров М.М. Сложные слова как объект лингвистического исследования // Известия Бакинского Университета. Серия гуманитарных наук, 2006, №4, с. 12-16.
5. Дмитриев Н.К. Грамматика башкырского языка. М.-Л., Акад. Наук ССР в Ленинграде. 1948, 276 с.
6. Закиев М.З. О тюркской морфонологии/ / Советская тюркология, Баку, 1984, №1, с. 35-44.
7. Кононов А.Н. О фузии тюркских языков // Структура и история тюркских языков. М.: Наука, 1971, с. 108-121.
8. Щербак А.М. Слог и его структура (на материале тюркских языков) // Вопросы тюркологии. Баку, 1971, с. 175-176.


## НЕКОТОРЫЕ ЛЕКСИЧЕСКИЕ И ГРАММАТИЧЕСКИЕ СОЕДИНЕНИЯ СУФФИКСОВ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ


**С.Х.ВЕЛИЕВА**


### РЕЗЮМЕ


В статье впервые в азербайджанском языкознании с точки зрения современного языка рассматриваются соединения суффиксов создающих наречие, а также дается анализ суффиксов в притяжательном падеже. Соединенные суффиксы иногда внутри соединения хотя и оставляют свое фонетическое значение, но в зависимости от звука полностью меняют свой вид и принимают другую форму.



**Ключевые слова:** язык, слова, сложный аффикс, словообразования, наречия, фузии


## SOME LEXICAL AND GRAMMATICAL AFFIXES IN MODERN AZERBAIJAN LANGUAGE


**S.Kh.VALIYEVA**


### SUMMARY


Along with the connective affixes making adverb from the point of view of modern language, the connection fact at the possessive affixes are systematically described in the article. Though, in some parts connective affixes keep their phonetic integrity, they are completely modified depending on the voice peculiarities of the connection of affixes.



**Key words:** language, words, complex affixes, affixes of possession, structure, language, to create a word